

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 94 (20.995)

*20 may 2014-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Vyetnam Sosialist Respublikasına dövlət səfərinə gəlmişdir.

* * *

Mayın 19-da Vyetnam Sosialist Respublikasının Prezident Sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.

* * *

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Vyetnam Sosialist Respublikasının Prezidenti Truonq Tan Sanqın məhdud tərkibdə görüşü olmuşdur.

Görüşdə ikitərəfli, beynəlxalq və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

* * *

Məhdud tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Vyetnam Sosialist Respublikasının Prezidenti Truonq Tan Sanqın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

* * *

Geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra Azərbaycan-Vyetnam sənədlərinin imzalanması mərasimi olmuşdur.

* * *

Mayın 19-da Hanoyda sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Vyetnam Sosialist Respublikasının Prezidenti Truonq Tan Sanq mətbuata bəyanatlarla çıxış etmişlər.



## Əlahiddə Ümumqoşun Ordusunda tədbir keçirilmişdir

Mayın 19-da Əlahiddə Ümumqoşun Ordusunun komandan heyətinə aparılan təyinatlar və hərbi hissələrə döyüş bayraqlarının verilməsi münasibətilə tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: "Hər bir dövlətin qüdrəti onun ordusunun qüdrəti ilə ölçülür. Ordu isə o zaman qüdrətli olur ki, düzgün hazırlanmış inkişaf strategiyasına və peşəkar, milli ruhlu zabit korpusuna malik olsun. Azərbaycanda ordu quruculuğu və peşəkar zabitlərin hazırlanması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Xalqımızın böyük oğlu istər Sovetlər Birliyi, istərsə də müstəqillik dövründə Azərbaycanın rəhbəri kimi ordu quruculuğu və hərbi kadrların hazırlığı məsələlərini daim diqqət mərkəzində saxlamışdır. Ulu öndərimiz Sovet hakimiyyəti dövründə Azərbaycanın gələcək dövlət müstəqilliyi barədə düşünərək Cəmşid Naxçıvanski adına hərbi məktəbi yaratmış, milli hərbi kadrların yetişməsinə nail olmuşdursa, müstəqillik dövründə bu potensialdan istifadə edərək Azərbaycan ordusunu yaratmışdır".

Ali Məclisin Sədri demişdir: "Ümummilli liderimizin rəhbərliyi ilə Azərbaycanın milli dövlətçiliyinin bərpası Naxçıvandan başlandığı kimi, milli ordu quruculuğu da 1991-ci ildə Naxçıvandan başlanmışdır. Böyük dövlət xadimi Naxçıvan Muxtar Respublikasının rəhbəri seçiləndən cəmi 4 gün sonra – 1991-ci il sentyabrın 7-də muxtar respublikanın müdafiəsinin təşkili ilə bağlı mühüm qərarlar qəbul etmiş, mövcud hərbi hissə və dəstələrə vahid rəhbərliyin əsasını qoymuşdur. Bu dövrdə yaradılan ilk milli ordu qurumlarından biri də 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada idi. 1993-cü ildə ali hakimiyyətə qayıdan ümummilli liderimiz Azərbaycan Silahlı Qüvvələrinin yaradılması istiqamətində davamlı tədbirlər görmüşdür. Blokada şəraitində və düşmən dövlətlə sərhəddə yerləşən Naxçıvanın müdafiəsi də diqqətdə saxlanmış, motoatıcı briqadanın bazasında diviziya, sonra isə ordu korpusu yaradılmışdır".





Qeyd olunmuşdur ki, Azərbaycan Ordusunu təkmilləşdirmək, ordunun döyüş və peşəkarlıq səviyyəsini artırmaq sahəsində ümummilli liderimizin başladığı iş bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ordumuzun döyüş qabiliyyəti yüksəldilir, maddi-texniki bazası möhkəmləndirilir, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası ərazisindəki hərbi hissələrin də maddi-texniki təminatı və hazırlıq səviyyəsi müasir tələblər nəzərə alınaraq gücləndirilmiş, vaxtında lazımi tədbirlər görülmüşdür. Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin daha da artırılması, bir mərkəzdən idarəetmənin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev 5-ci ordu korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordusu yaratmışdır. Naxçıvanın müdafiə potensialının bundan sonra da davamlı olaraq güclənəcəyini bildirən hörmətli Prezidentimiz demişdir: ***"Ordu quruculuğu sahəsində aparılan islahatlar, Naxçıvanda əlahiddə ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir. Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan ordusu bu gün güclü ordudur. Naxçıvan ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır".***





Ali Məclisin Sədri olduqca həssas bir dövrdə Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və təhlükəsizliyinin daha da möhkəmləndirilməsinə göstərdiyi ali diqqət

*Ardı 2-ci səhifədə*





və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə dərin minnətdarlığını bildirərək demişdir: “Bu gün eyni zamanda yeni yaranmış hərbi hissələrə döyüş bayraqları da təqdim olunur. Bayraq tarixi boyu xalqımız tərəfindən həmişə uca tutulub, qürur mənbəyi, yüksək dövlətçilik rəmzi kimi qəbul olunub”.

Ali Məclisin Sədri Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə Əlahiddə Ümumqoşun Ordusunun komandan heyətinə aparılan təyinatlar və hərbi hissələrə döyüş bayraqlarının verilməsi münasibətilə tədbir iştirakçılarını, bütün şəxsi heyəti təbrik etmiş, çıxışını ümummilli liderimizin ***“Bizim hamımızın bir Vətəni var – bu, Azərbaycandır. Hamımız bir torpaqda yaşayırıq – bu, Azərbaycan torpağıdır. Azərbaycan torpağının hər guşəsi hər birimiz üçün müqəddəs yerdir”*** müdrik sözləri ilə bitirmişdir.

Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov Əlahiddə Ümumqoşun Ordusunun komandan heyətinə aparılan təyinatlarla bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarını oxumuş, yeni vəzifəyə təyin olunanlara xidmətdə uğurlar arzulamışdır.

Azərbaycan Respublikası müdafiə nazirinin müavini – Əlahiddə Ümumqoşun Ordusunun komandanı, general-leytenant Kərəm Mustafayev demişdir ki, bu gün ölkəmizdə ümummilli liderimizin müəyyənləşdirdiyi ordu quruculuğu strategiyası uğurla davam etdirilir. Muxtar respublikada digər sahələrlə yanaşı, ordu quruculuğu istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir, Naxçıvanın müdafiə qabiliyyəti gücləndirilir. Yeni yaradılan Əlahiddə Ümumqoşun Ordusu muxtar respublikanın təhlükəsiz və etibarlı müdafiəsinin təşkil olunması baxımından mühüm əhəmiyyət daşıyır.

Sonra Naxçıvan şəhərindəki “N” saylı hərbi hissədə Əlahiddə Ümumqoşun Ordusuna və bu ordunun yeni yaradılan hərbi hissələrinə döyüş bayraqları təqdim olunmuşdur.

Azərbaycan Respublikası müdafiə nazirinin müavini – Əlahiddə Ümumqoşun Ordusunun komandanı, general-leytenant Kərəm Mustafayev təqdimat mərasiminə gələn Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbova və Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənova raport vermişdir.

Ali Məclisin Sədri əsgərləri salamlamışdır. Azərbaycan Respublikasının Dövlət himni səslənmişdir.

Əlahiddə Ümumqoşun Ordusuna və onun yeni yaradılan hərbi hissələrinə döyüş bayraqlarının verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin təqdimatı oxunmuşdur.

Ali Məclisin Sədri Əlahiddə Ümumqoşun Ordusuna, Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov isə hərbi hissələrə döyüş bayraqlarını təqdim etmişlər.

Şəxsi heyət təntənəli marşla tribunanın önündən keçmişdir.

## Əlahiddə Ümumqoşun Ordusunun hərbi hissələrinə yeni xidməti avtomobillər verilmişdir





Mayın 19-da Əlahiddə Ümumqoşun Ordusunun hərbi hissə və birləşmələrinə 11 ədəd “Mitsubishi L-200”, 2 ədəd “FİAT” markalı xidməti avtomobil, 2 ədəd “Ford” markalı səyyari tibbi yardım və 1 ədəd rentgen flüoqrafiya avtomobilləri verilmişdir.

Yeni xidməti avtomobillərin açarları təqdim edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov avtomobillərə baxmışlar.

Bildirilmişdir ki, yüksək texniki göstəricilərə malik olan “Mitsubishi L-200” markalı avtomobillər muxtar respublikanın relyefinə uyğun olaraq istənilən fasildə xidməti fəaliyyətin təhlükəsiz və çevik təşkilinə imkan verəcəkdir. “Ford” markalı səyyari tibbi avtomobillərdə stomatoloji və cərrahi avadanlıqlar dəsti quraşdırılmışdır. Bu da birləşmə və bölmələrdə şəxsi heyətin vaxtlı-vaxtında tibbi müayinədən keçirilməsinə şərait yaradacaqdır. Səyyari rentgen flüoqrafiya maşını da yüksək texniki göstəricilərə malikdir.

Ali Məclisin Sədri yeni xidməti avtomobillərdən təyinatı üzrə səmərəli istifadə olunması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Şərurda sığorta işi ilə bağlı müşavirə keçirilmişdir



***Mayın 19-da Şərur Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə birgə rayonda sığorta işinin mövcud vəziyyəti və qarşıda duran vəzifələr barədə müşavirə keçirilmişdir. Müşavirəni Şərur Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov açmış, rayonda sığorta sahəsində görülmüş işlərdən danışmışdır.***

Müşavirədə Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin Baş direktoru Hikmət Əsgərov çıxış edərək muxtar respublikamızda sığorta işinin təkmilləşdirilməsi və müasir tələblərə uyğun şəkildə genişləndirilməsi işində 30 noyabr 2011-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Muxtar respublikada sığorta fəaliyyəti və qarşıda duran vəzifələr barədə” keçirilən müşavirənin xüsusi əhəmiyyət daşıdığını vurğulamışdır. Agentliyin Baş direktoru baş vermiş ayrı-ayrı sığorta hadisələrindən misallar gətirməklə sığortanın əhəmiyyətindən danışmış, vaxtında sığortalanmağın üstünlüklərini diqqətə çatdırmışdır. Hikmət Əsgərov həmçinin qeyd etmişdir ki, ötən müddətdə Şərur rayonunda da bu istiqamətdə xeyli iş görülmüş, müxtəlif sığorta növləri üzrə bağlanılan müqavilələrin sayı artmışdır. Daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, ev əmlakı sığortası, fərdi qəza sığortası və digər sığorta növləri üzrə görülmüş işlərdən və qarşıda duran vəzifələrdən də danışan agentlik rəsmisi qeyd etmişdir ki, rayonda sığorta sahəsində görülmüş işlərlə bərabər, icbari qaydada sığorta olunmalı olan daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə hələ də sığorta olunmayan hüquqi və fiziki şəxslər vardır. Vurğulanmışdır ki, qarşıya qoyulan vəzifə ondan ibarətdir ki, Azərbaycan Respublikasının qanunu ilə tənzimlənən icbari sığortalar üzrə hər bir sığorta obyekti sığorta olunmalıdır.

Müşavirəyə Şərur Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov yekun vurmuşdur.

## Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi Mülki Müdafiə Alayının gənc əsgərləri and içmişlər

***Mayın 18-də Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi Mülki Müdafiə Alayının gənc əsgərlərinin andiçmə mərasimi keçirilib. Taqımlar şəklində tribunanın önündə düzülən gənc əsgərlər əllərini üçrəngli bayrağımızın üstündəki silahın üzərinə qoyaraq Vətəni layiqincə qoruyacaqlarına, əsgəri borca şərəflə əməl edəcəklərinə and içiblər.***

Mərasimi giriş sözü ilə alay komandiri, polkovnik İspəndiyar Əhmədov açıb.

Mərasimdə Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Qara Fərzəliyev, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar, bölük komandiri, baş leytenant Röyal Quliyev çıxış edərək gənc əsgərlərə xidmətdə uğurlar arzulayıblar.

Gənc əsgərlər adından çıxış edən Şirəli Hüseynov hərbi anda sadiq qalacaqlarını, Vətənin hər qarışı üçün canlarını belə əsirgəməyəcəklərini bildirib.

Valideyn, Qarabağ müharibəsi veteranı Əsgər Həsənov övladının hərbi and içməsindən qürur hissi keçirdiyini vurğulayıb, mərasimdə iştirak edən əsgər valideynlərini bu əlamətdar gün münasibətilə təbrik edib.

Sonra Naxçıvan Muxtar Respublikası fövqəladə hallar nazirinin müavini, polkovnik Hikmət Kərimov çıxış edərək bu gün and içən əsgərlərin Azərbaycanın müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün keşiyində layiqincə duracaqlarına söz verdiklərini bildirib. O, ümidvar olduğunu bildirib ki, gənc əsgərlər nümunəvi xidməti, təlim-tərbiyəsi ilə hərbi hissənin adını yüksək tutacaq, əsgəri borcunu şərəflə yerinə yetirəcək, bir xilasedici kimi baş verə biləcək fövqəladə hallar zamanı insanların xilas edilməsində əllərindən gələni əsirgəməyəcəklər. Sonra hərbi hissənin şəxsi heyəti tribuna önündən keçib.

Mərasim Azərbaycan Respublikasının Dövlət himninin oxunması ilə başa çatıb.

**Xəbərlər şöbəsi**

# ABŞ-da keçirilən IX Beynəlxalq İpək Yolu Konfransında Naxçıvana həsr olunmuş məruzə dinlənilib

*Mayın 15-16-da ABŞ-ın İllinoys ştatının Çikaqo şəhərində IX Beynəlxalq İpək Yolu Konfransı keçirilib. Çikaqoda yerləşən Mərkəzi Asiya Məhsuldarlıq Mərkəzi və Şimali İllinoys Universitetinin birgə təşkilatçılığı ilə keçirilən konfransda ABŞ Dövlət Departamenti və Müdafiə Nazirliyinin nümayəndələri, ABŞ-ın müxtəlif ştatlarından olan iş adamları, universitet professorları, konsaltinq şirkətlərin, akademik dairələrin nümayəndələri və bir sıra ölkələrin ABŞ-dakı diplomatik korpuslarının təmsilçiləri iştirak ediblər.*

IX Beynəlxalq İpək Yolu Konfransında Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Pakistan, Əfqanıstan və Tacikistanın nümayəndə heyətləri ölkə təqdimatları ilə çıxış ediblər.

Beynəlxalq konfransda Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Elbrus İsayev "Böyük İpək Yolu" haqqında məruzə ilə çıxış edib. İpək Yolunun inkişafında Azərbaycanın mühüm rol oynadığını qeyd edən Elbrus İsayev hal-hazırda ölkəmizdə həyata keçirilən irimiqyaslı infrastruktur layihələr barədə iştirakçılara ətraflı məlumat verib, İpək Yolunun bərpası istiqamətində ilk təşəbbüskar dövlət kimi Azərbaycanın mövqeyini vurğulayıb, bu layihələrin region üçün əhəmiyyətindən danışıb.

Məruzədə İpək Yolu üzərində ən mühüm məntəqələrdən olan Naxçıvanın qədim dövlətçilik və şəhərsalma tarixi faktlarla sadalanaraq qeyd edilib ki, bu yolun keçdiyi ərazilərdən biri də Şərqlə Qərb arasında mühüm məntəqə sayılan və Azərbaycanın qədim zamanlardan inkişaf etmiş mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən olan Naxçıvan ərazisidir. Arxeoloji qazıntılar zamanı əldə olunan maddi-mədəniyyət nümunələri təsdiq edirlər ki, Naxçıvan bölgəsi beş min illik tarixə sahib olan ilkin şəhər mədəniyyətinin yarandığı ərazilərdən biridir.

Həmçinin bölgənin Ermənistan tərəfindən blokadada saxlanması diqqətə çatdırılıb. Məruzəçi qeyd edib ki, XX əsrdə bölgə üzərində oynanılan imperialist maraqlar və bu maraqlarda daim bir vasitəyə çevrilən ermənilər tarixi Azərbaycan torpaqlarını işğal etməklə Naxçıvanı ana Vətəndən ayırdılar. Bu gün Naxçıvan blokada vəziyyətində yaşayır. Blokadanın ağır şərtlərinə baxmayaraq, burada böyük inkişaf var. Azərbaycanla heç bir quru ərazi əlaqəsi qalmayan Naxçıvan üçün Yeni İpək Yolunun ən böyük töhfəsi Bakı-Tbilisi-Qars+Naxçıvan dəmir yolu xətti layihəsidir. Bu layihənin gerçəkləşdirilməsi bu ərazinin uzun illərdən bəri yaşadığı blokada asılılığından müəyyən dərəcədə çıxmasına şərait yaradacaqdır.

Məruzəçinin Azərbaycan və ingilis dillərində nəşr etdirdiyi "Böyük İpək Yolu və Naxçıvan" kitabı konfrans nümayəndələrinə təqdim edilib.

Məruzədən sonra Naxçıvanın tarixi və mədəni nailiyyətlərini, müasir inkişafını özündə əks etdirən slayd göstərilib, ingilisdilli kitab, jurnal və digər təbliğat materialları sərgilənib.

**Elnur KƏLBİZADƏ**

***15-17 may tarixlərində Şərur rayonunda Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Realmadrid Fondu ilə birgə həyata keçirdiyi layihənin təqdimatı olmuşdur. Bu müddətdə fiziki tərbiyə müəllimləri və uşaqlar üçün təlim keçilmişdir. Təlim zamanı Şərur rayonunun 8 nəfər fiziki tərbiyə müəlliminə Realmadrid Fondunun təqdim etdiyi təlim proqramı öyrədilmişdir. Təlim və təlim-məşq "Vətən" Sosial Futbol Məktəbinin məşqçisi Namiq Allahverdiyev tərəfindən həyata keçirilmişdir.***

# Naxçıvan Muxtar Respublikasında Realmadrid Futbol Məktəbinin bölməsi fəaliyyətə başlayıb



Mayın 18-də Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Realmadrid Fondu ilə birgə həyata keçirdiyi "Futbol vasitəsilə uşaqların sağlamlıqlarının qorunması və sosial həyata inteqrasiyası" adlı layihə çərçivəsində yaradılan Realmadrid Futbol Məktəbinin bölməsi fəaliyyətə başlamışdır. Bu münasibətlə Şərur rayonundakı Olimpiya- İdman Kompleksində keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov son illər muxtar respublikada idmana göstərilən diqqət və qayğıdan danışmışdır. Nazir bildirmişdir ki, 18 mart 2013-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr"lə bağlı keçirilmiş müşavirədə Ali Məclisin Sədri tərəfindən futbolun inkişafı istiqamətində konkret vəzifələr müəyyənləşdirilmiş, "Araz-Naxçıvan" futbol komandasının yenidən formalaşdırılması barədə tapşırıqlar verilmişdir. Bundan sonra "Araz-Naxçıvan" böyük futbola qayıtmış və futbol üzrə Azərbaycan çempionatının birinci divizionunun 2013-2014-cü illər mövsümünün qalibi olmuşdur. Bu həmçinin muxtar respublikada futbolun kütləviliyinə, bu idman növünə marağın artmasına səbəb olmuşdur. Artıq bütün rayonlarda futbol bölmələrinə uşaq və yeniyetmələr cəlb edilmiş, onlar arasında seçim işlərinin aparılması yekunlaşdırılmışdır. Belə ki, bu yaxınlarda məhz bu stadionda 12, 13, 14, 15 yaşlı uşaqlar arasında ölkə çempionatının zona birinciliyi keçirilmişdir. Qalib komandalar Azərbaycan çempionatında muxtar respublikanı təmsil etmişlər. Bu tədbirlərin davamı kimi, bu gün muxtar respublikada Realmadrid Futbol Məktəbinin bölməsi fəaliyyətə başlayır. Bu, çox əhəmiyyətli hadisədir. Belə ki, məktəbdə uşaqlarla peşəkar məşqçilər xüsusi proqramla məşqlər keçəcəklər. Bu isə, öz növbəsində, peşəkar futbolçuların yetişməsinə müsbət təsir göstərəcəkdir.

Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov belə bir sosial məktəbin Naxçıvan Muxtar Respublikasında fəaliyyətə başlamasını əlamətdar hal kimi dəyərləndirərək demişdir ki, bir çox gənc, futbola həvəsi olan uşaq və yeniyetmələr Realmadrid Fondu ilə birgə həyata keçirilən layihə çərçivəsində açılan məktəbdə futbolun sirlərini öyrənəcəklər. Burda hər cür şərait yaradılmış və uşaqların püxtələşməsi üçün bütün avadanlıqlar mövcuddur. Naxçıvanda idman gündən-günə inkişaf etməkdədir və qarşıdakı illərdə idmançılar beynəlxalq arenalarda daha böyük uğurlar qazanacaqlar. Bu məktəbin Şərurda fəaliyyət göstərməsinə köməklik edənlərə minnətdarlığımızı bildiririk.

Çıxışlardan sonra bölmədə futbolun sirlərini öyrənəcək uşaqlara forma və toplar hədiyyə olunmuşdur.

Sonra bir qrup 6-17 yaşlı uşaqlara təlim-məşq keçilmişdir.

Sonda valideynlərə, uşaqlara və fiziki tərbiyə müəllimlərinə layihə haqqında məlumat verilmiş və 6-17 yaşlı bir qrup uşaq seçilərək qrup yaradılmışdır.

**Ceyhun MƏMMƏDOV**

# Əvvəlki illərin məzunları üçün I və IV ixtisas qrupları üzrə ali məktəblərə qəbul imtahanı keçirilib



Mayın 18-də 2014-2015-ci tədris ili üçün ali təhsil müəssisələrinə və orta ixtisas təhsili müəssisələrinə qəbul olunmaq istəyən əvvəlki illərin məzunları üçün I və IV ixtisas qrupları üzrə qəbul imtahanı keçirilib. Muxtar respublikada Naxçıvan şəhər 7 və 14 nömrəli tam orta məktəblərdə keçirilən imtahanlarda 1156 abituriyent iştirak edib. İmtahana 114 nəzarətçi-müəllim, 10 imtahan rəhbəri cəlb olunub.

İmtahan başlanmazdan əvvəl imtahan keçiriləcək məktəblərin önündə həyəcanlı görünən abituriyentlər, onların valideynləri ilə görüşüb həmsöhbət olduq. Babək rayonundan olan valideyn Vaqif Əliyev dedi:

– Bu gün qızım Firəngiz imtahan verir. Əvvəlki illərdə uğur qazana bilməyib. Ancaq ali məktəbə qəbul olmağı qarşısına məqsəd qoyub.

Naxçıvan şəhərindən olan Elman Nəcəfli isə oğluna dəstək üçün imtahana gəlib. Deyir ki, oğlum Qərib imtahana yaxşı hazırlaşıb. İnanıram ki, qəbul imtahanında uğur qazanacaq. Valideyn ərazidə insanların rahatlığı üçün iaşə xidmətinin təşkilindən də razılıqla danışdı.

Saatlar $11^{00}$-i göstərəndə imtahan başladı. İmtahan qurtarana kimi biz də imtahanda müşahidələrimizi apardıq. Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdə keçirilən imtahanların gedişi zamanı abituriyentlər heç bir qayda pozuntusuna yol verməyərək diqqətlərini ancaq test tapşırıqlarına yönəltdilər. Ümumiyyətlə, imtahanda təşkilatçılıq yüksək səviyyədə idi. İmtahanların gedişinə nəzarət edən imtahan rəhbəri Nəsrəddin Musayev bildirdi ki, abituriyentlərin öz bilik və bacarıqlarını göstərmək üçün ayrılan 3 saat ərzində imtahan otağında onların yüksək fəallığını müşahidə edib.

İmtahan başa çatdıqdan sonra bir neçə abituriyentlə həmsöhbət olduq. Şahbuz rayonundan olan Turanə Abbasovanın üzündəki təbəssümdən hiss olunurdu ki, sualları yaxşı cavablandırıb. Dedi ki, yaradılan sakitlik hesabına o, imtahanda məhsuldar işləyə bilib.

Məlumat üçün bildirək ki, I və IV ixtisas qrupları üzrə imtahan respublikanın 11 şəhərində – Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Şəki, Ağcabədi, Göyçay, Şirvan, Lənkəran və Xaçmaz şəhərlərində, ümumilikdə, 34 binada keçirilib. İmtahanın idarə olunması üçün 152 imtahan rəhbəri və 1619 nəzarətçi-müəllim cəlb olunmuşdu. İmtahanda iştirak edənlərdən 16810 nəfər orta ümumtəhsil məktəblərinin, 191 nəfər ali təhsil müəssisələrinin, 1772 nəfər isə orta ixtisas təhsili müəssisələrinin məzunudur.

Qeyd edək ki, imtahanda təqdim olunmuş sualların düzgün cavabları TQDK-nın internet saytında yerləşdiriləcək.

**Sara ƏZİMOVA**

*Son 18 ildə Naxçıvanda yaşıllıq sahələrinin həcminin bir neçə dəfə artması, yurdumuzun yaşıllıqlar məskəninə çevrilməsi muxtar respublikanın hər bir guşəsində keçirilən və naxçıvanlıların vətəndaşlıq borcuna çevrilən iməciliklər nəticəsində mümkün olmuşdur. Bu sahədə görülən işlərin kəmiyyət və keyfiyyəti getdikcə yüksəlir. Mövcud problemlərin həlli istiqamətində görülən tədbirlərin davamlı xarakter alması, yeni əkilən ağacların suvarılmasında damcı üsulunun tətbiqinin genişləndirilməsi xeyli meyvə bağlarının, yaşıllıq zolaqlarının salınması ilə nəticələnmişdir.*

# İməciliklər mütəşəkkilliklə davam etdirilir



Cari ildə də bu tədbirlər mütəşəkkilliklə davam etdirilməkdə, meyvə bağlarının, yaşıllıq zolaqlarının, gülkarlıq sahələrinin həcmi genişləndirilməkdədir.

May ayının 17-də keçirilən iməciliklər də yüksək səviyyədə təşkil olunmuşdu.

Həmin gün Naxçıvan şəhərinin sakinləri tərəfindən Uzunoba Su Anbarı yaxınlığındakı 3 hektarlıq yeni salınmış meyvə bağında suvarma işləri aparılmış, Naxçıvan-Sədərək və Naxçıvan-Batabat magistral yolunun sağ və sol hissəsində yaşıllıqlara aqrotexniki qulluq göstərilmiş, park və xiyabanlarda təmizlik işləri aparılmışdır.

Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunun sakinləri əvvəlki iməciliklərdə olduğu kimi, budəfəki iməcilikdə də əzmkarlıq nümayiş etdirmiş, Naxçıvan-Sədərək magistral yolunun Püsyan kəndindən keçən hissəsindəki bağlarda yaşıllıqlara aqrotexniki qulluq göstərilmişdir. Şərur şəhərinin Heydər Əliyev prospektindəki parkda 5000 ədəd birillik gül şitilləri əkilmişdir.

İməcilik günü Babək rayonunun ərazisində də qələbəlik müşahidə edilmişdir. Şəkərabad kəndində 3 hektarlıq, Hacıvar kəndində isə 4 hektarlıq bağlarda yaşıllıqlara aqrotexniki qulluq göstərilmiş, Əshabi-Kəhf ziyarətgahına gedən yolun kənarlarındakı bağlarda suvarma işləri aparılmışdır.

Bağlar diyarı Ordubad rayonunda da iməciliklər mütəşəkkilliklə keçirilmiş, Naxçıvan-Ordubad magistral yolunun Dəstə kəndindən keçən hissəsində 28 hektarlıq meyvə bağında, Aza, Aşağı və Yuxarı Əylis kəndlərində yol kənarlarındakı yaşıllıqlara aqrotexniki qulluq göstərilmiş, Ordubad şəhərinin park və xiyabanlarına 30 ədəd həmişəyaşıl ağac əkilmişdir.

Culfa rayonunun sakinləri Naxçıvan-Ordubad magistral yolunun kənarındakı bağlara, yaşıllıqlara aqrotexniki qulluq göstərmiş, şəhərin giriş hissəsinə 200 ədəd ardınc, Bayraq meydanına 110 ədəd həmişəyaşıl ağac və 2000 ədəd gül kolu əkilmişdir.

Kəngərli rayonunun Qıvraq qəsəbəsindəki 5 hektarlıq bağ və Naxçıvan-Sədərək magistral yolunun kənarlarındakı yaşıllıqlar alaq otlarından təmizlənərək suvarılmışdır.

Şahbuzlular Naxçıvan-Şahbuz-Batabat magistral yolunun kənarlarında salınmış bağlara aqrotexniki qulluq göstərmiş, Şahbuz şəhərinin park və xiyabanlarında 200 ədəd həmişəyaşıl, 500 ədəd gül kolu əkmişlər.

Sədərək rayonunun sakinləri Heydərabad qəsəbəsində park və xiyabanlarda, Sədərək kənd 1 nömrəli tam orta məktəbin və rayon Mərkəzi Xəstəxanasının həyətində yaşıllıqlara aqrotexniki qulluq göstərmişlər.

Həmin gün muxtar respublikanın bütün bölgələrində ahıl vətəndaşların həyətlərində təmizlik və abadlıq işləri aparılmışdır.

İməciliklərdə, ümumilikdə, 24 min 588 nəfər iştirak etmiş, 6 min 80 ədəd meşə, meyvə, həmişəyaşıl ağac və gül kolları əkilmişdir.

**Xəbərlər şöbəsi**

# "Araz" Elm İstehsalat Birliyində seminar-müşavirə

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi, "Araz" Elm İstehsalat Birliyi əməkdaşlarının və taxılçılıqla məşğul olan torpaq mülkiyyətçilərinin iştirakı ilə Naxçıvan Muxtar Respublikasında taxılçılığın elmi əsaslarla inkişaf etdirilməsi məqsədilə maarifləndirici seminar-müşavirə keçirilib. "Araz" Elm İstehsalat Birliyinin yardımçı təcrübə təsərrüfatında təşkil olunan tədbiri kənd təsərrüfatı nazirinin müavini Sahib İbrahimli açaraq bildirib ki, ölkəmizdə ərzaq təhlükəsizliyi probleminin həllində taxıl istehsalının həcminin ildən-ilə artırılması müstəsna rol oynayır. Buna görə də muxtar respublikada taxılçılığın inkişafına böyük önəm verilir.

Sonra nazirliyin Bitkiçilik məhsullarının istehsalı, toxumçuluq və aqrokimyəvi xidmət şöbəsinin müdiri Ədalət Hüseynovun "Naxçıvan Muxtar Respublikası şəraitində taxılın becərilmə texnologiyası haqqında", Bitkilərin mühafizəsi və karantini şöbəsinin müdiri Həsən İsmayılovun "Taxıllarda alaq otlarına, siçanabənzər gəmiricilərə, xəstəlik və ziyanvericilərə qarşı aparılan kimyəvi mübarizə üsulları haqqında" mövzularında çıxışları olub. Çıxışlarda vurğulanıb ki, taxılçılıqda yüksək məhsul əldə etmək üçün bütün aqrotexniki tədbirlər vaxtında və keyfiyyətlə yerinə yetirilməli, ilk növbədə, taxıl əkiləcək sahədə növbəli əkin sisteminə ciddi əməl olunmalıdır. Taxılın, əsasən, kartof, tərəvəz, bostan, birillik və çoxillik otlar və sair bitkilərdən sonra əkilməsi daha məqsədəuyğundur. Taxıl əkinində, əsasən, şırım üsuluna üstünlük verilməlidir. Bu üsul tətbiq edildikdə torpaq yaxşı rütubətlənir, strukturu yaxşı saxlanılır, su itkisinə yol verilmir.

"Araz" Elm İstehsalat Birliyinin direktoru Bəhruz Bayramov çıxışında bildirib ki, muxtar respublikada taxılçılıqla məşğul olan torpaq mülkiyyətçilərinə, sahibkarlara kömək məqsədilə birlik tərəfindən də müvafiq tədbirlər həyata keçirilir. Məqsəd əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına nail olmaqdır.

Sonda yeni əkilmiş buğda sortlarına baxış keçirilib, sahibkarlara bukletlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu maarifləndirici tədbirləri davam etdirir

*Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun Naxçıvan Şəhər Şöbəsi "Dizayn Mebel" Məhdud Məsuliyyətli Cəmiyyətində maarifləndirici tədbir keçirib.*

Tədbirdə şöbənin əməkdaşları Asim Cəfərov, Anar Eynalov və Fərid Vəliyev məcburi dövlət sosial sığortasının mahiyyəti və üstünlükləri, məcburi dövlət sosial sığorta haqlarının onlayn ödəmə sistemi vasitəsilə ödənilməsi, sığortaolunanların pensiya təminatı hüququ və onların fərdi uçot sistemi vasitəsilə əhatə olunması ilə bağlı məsələlər barədə geniş məlumat veriblər.

Qeyd olunub ki, işəgötürənlərlə işçilər arasında tənzimlənən münasibətlərdən ən vacibi məhz işləyən vətəndaşların gələcəkdə pensiya təminatı hüququnun yaradılması, əmək qabiliyyətinin müvəqqəti itirilməsi, hamiləlik və uşağın anadan olması, uşağa qulluq, sanatoriya-kurort müalicəsi kimi zəruri sosial sığorta hadisələrindən yararlanmaları üçün onların "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun şəkildə məcburi dövlət sosial sığortasına cəlb olunmasının təmin edilməsidir. Bütün işləyən vətəndaşlar məcburi dövlət sosial sığorta haqlarının vaxtlı-vaxtında və tam məbləğdə ödənilməsinə maraqlı olmalıdır.

Vurğulanıb ki, məcburi dövlət sosial sığorta haqqı sığortaedənlər tərəfindən bank köçürmələri, onlayn ödəmə sistemi vasitəsilə bankda nağd qaydada və ya internet vasitəsilə plastik kartlardan istifadə etməklə ödənilə bilər.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Şərur qızının bir əsrlik saz sədası



***Özünəməxsus adət-ənənələri, arxeoloji və tarixi memarlıq abidələri ilə məşhur olan Şərur torpağı elm, səhiyyə, mədəniyyət və incəsənət sahələrində yetişdirdiyi övladları ilə də rəğbət qazanmışdır. Bu diyarın torpağı, suyu, havası burada yaşayan insanların ilham qaynağı olmuşdur. Şərur mahalı igid, qeyrətli, təəssübkeş oğulları ilə yanaşı, kişi qeyrətli, zəhmətkeş qadınları ilə də tanınmışdır. Şərur qadınları savadı və qabaqcıllığı ilə hər zaman söz sahibi olmuş, xalqa dar günündə dayaq durmuş, elm və mədəniyyətin inkişafında müstəsna xidmətlər göstərmişlər. Belə qadınlardan biri də bu il anadan olmasından 100 il ötən Şərurun nəğməkar qızı Aşıq Nabat olmuşdur.***

Aşıq Nabat (Nabat Paşa qızı Cavadova) 1914-cü ildə Şərur rayonunun Parçı (indiki Xanlıqlar) kəndində dünyaya göz açmışdır. Aşıq Nabat ata-anasını uşaq yaşlarında itirmişdir. Nabatın məlahətli səsi çoxlarının diqqətini özünə cəlb edirdi. Nabatın məhəbbəti onu Dərələyəz ellərinə qədər aparmışdı. Lakin bu xoşbəxtliyin ömrü az olmuşdu. Onun həyat yoldaşı qaçaqların hücumu zamanı öldürülmüş, o, 1934-cü ildə Bərdə rayonuna köçmüş, bir müddət orada yaşadıqdan sonra Qarabağa gəlmişdir. Burada Xan Şuşinski, Seyid Şuşinski, Zülfü Adıgözəlov və Qurban Pirimovla bir yerdə müğənnilik etmişdir. Aşıq Nabat bir müddət müğənnilik etdikdən sonra saza daha çox meyil göstərir və aşıqlıq etməyə başlayır. O, üç il Aşıq Ələsgərin qardaşı oğlu Aşıq Musanın şagirdi olmuş, ondan saz havalarını və "Aşıq Qərib", "Leyli və Məcnun", "Lətif şah", "Abbas və Gülgəz" dastanlarını öyrənmişdir.

Azərbaycan musiqisinin beşiyi sayılan Qarabağda aşıq kimi ad qazanmaq bir musiqiçi üçün böyük nailiyyət idi. Aşıq Nabat 1938-ci ildə Azərbaycan Aşıqlarının II Qurultayında iştirak edir və ustad bir aşıq kimi tanınmağa başlayır. 1940-cı ildə Moskvada keçirilən ongünlükləndə iştirak edən Aşıq Nabat o günləri xatirələrində belə qeyd edir: "Şair Səməd Vurğun yanımıza gəldi, repertuarımızla maraqlandı, sonra mənə üçbəndlik bir qoşma yazıb verdi və dedi: "Aşıq Nabat, bax, xoşuna gəlsə, "Danışaq" qoşmasını Moskvada, Kremlin səhnəsində oxuyarsan!.."

Nabat Səməd Vurğunun "Danışaq" rədifli qoşmasını oxumuşdu. Hələ 26 yaşında Kremlin səhnəsində çıxış edən Şərurun nəğməkar qızı saz çalıb oxumaqla bərabər, şeir yazmağa da maraq göstərmişdi. O, qəlbindən keçənləri dilinə və qələminə gətirmişdi. Doğma elindən uzaq düşən, gənc yaşında bir çox çətinliklərlə qarşılaşan Nabat bir sıra şeir, gəraylı, qoşma, bayatı və deyişmələr yazmışdır:

**"Mən sizdən xəbərsiz"**

*İki gözüm – Oğlan qala,*
*Qız qala,*
*Mən sizdən xəbərsiz sizdən*
*ayrıldım.*
*Ay Əyricə dağım, a doğma*
*Parçım,*
*Mən sizdən xəbərsiz sizdən*
*ayrıldım.*

*Üç gözəlin timsalıdır Siyaqut:*
*Arpa çay, biri Sara, birin tap.*
*Nuruyla bağlıdır qanlı hekayət,*
*Mən sizdən xəbərsiz sizdən*
*ayrıldım.*

*Nabat, yazda gəldim, düşdüm*
*qışa mən,*
*Qürbət eldə döndüm qərib*
*quşa mən,*
*Qoymadılar gəzəm yarla*
*qoşa mən,*
*Mən sizdən xəbərsiz sizdən*
*ayrıldım.*

Azərbaycanın klassik qadın aşıqlarından olan Aşıq Nabat peşəkar və yaradıcı bir insan olmuşdur. Onun dərin zəkası, məlahətli səsi Azərbaycan milli musiqisinin banisi dahi Üzeyir Hacıbəylinin diqqətini çəkmiş və onu Bakıya dəvət etmişdir.

Aşıq Nabat Yevlaxda yaşadığı dövrlərdə Yevlax Mədəniyyət Evinin səhnəsində "Ərəb Zəngi", "Aşıq Kərəm" (kişi paltarında) rollarında oynamışdır. O, ifaçılıq qabiliyyəti ilə XX əsr Azərbaycan qadın aşıqlarının ən öndə gedənlərindən olmuşdur. Ömrünün sonuna qədər Yevlax şəhərində yaşayan Aşıq Nabat Əyricə dağının və Parçı kəndinin həsrətiylə dünyadan köçmüşdür. 3 oktyabr 1973-cü ildə Yevlax şəhərində vəfat edən Nabat Cavadova vəsiyyətinə görə, Şərur rayon Siyaqut kəndində dəfn edilmişdir.

Azərbaycan Aşıqlarının IV Qurultayına hazırlıq ərəfəsində Aşıq Nabatın yazdığı "Yaxşıdır" gəraylısının heç bir yerdə çap olunmadığını öyrəndik. Bu yazıda həmin gəraylını bacısı oğlu S. Süleymanovdan alaraq oxuculara təqdim edirik.

**"Yaxşıdır"**

*Qürbət eldə bir bağ saldım,*
*Dedim, neçə gül yaxşıdır?*
*Dərdimi söylədim ona,*
*Onda mübdədil yaxşıdır.*

*Elə ki çatdım yaşıma,*
*Həsrət qaldım sirdaşıma.*
*Gör nədir, gəldi başıma?*
*İndi bildim, el yaxşıdır.*

*Aşıq Nabat saz çalınca,*
*Gedib qürbətdə qalınca,*
*Qürbət eldə xan olunca*
*Öz yerində qul yaxşıdır.*

***Həsən SEYİDOV***
***Naxçıvan Musiqi Kollecinin müəllimi***

*Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan Muxtar Respublikasının əməkdar mədəniyyət işçisi, şair-dramaturq Həsənəli Eyvazlının "Araz sahilində doğan Günəş" ikihissəli tarixi dramı əsasında hazırlanmış eyniadlı tamaşa teatrsevərlərə təqdim edilmişdir.*

## "Araz sahilində doğan Günəş" tamaşası yenidən Naxçıvan səhnəsində

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi münasibətilə yenidən səhnələşdirilən bu əsər ilk dəfə Naxçıvan teatrının səhnəsində 2008-ci ildə tamaşaçılara təqdim olunmuşdur.

Vətənimizdə XX əsrin əvvəllərində baş verən siyasi hadisələri uğurla əks etdirən tamaşa teatrsevərlər tərəfindən maraqla qarşılanmışdır.

Tamaşada əsas qəhrəmanlar – Nəriman Nərimanov (Azərbaycan Respublikasının əməkdar artisti Əli Əliyev), Mustafa Kamal Atatürk (Naxçıvan Muxtar Respublikasının əməkdar artisti Səməd Canbaxşıyev), Behbud ağa Şahtaxtinski (Azərbaycan Respublikasının xalq artisti Rza Xudiyev), İbrahim Əbilov (Azərbaycan Respublikasının əməkdar artisti Bəhruz Haqverdiyev) kimi şəxsiyyətlərin qədim diyarın muxtariyyət statusunun müəyyənləşməsi uğrundakı mübarizəsi ön plana çəkilmişdir.

Tamaşada ermənilərin Naxçıvan torpaqlarına iddia etmələrinə havadarlıq edən Stalin (Azərbaycan Respublikasının xalq artisti Həsən Ağasoy) və Çiçerin (Azərbaycan Respublikasının əməkdar artisti Əbülfəz İmanov) kimi siyasətçilərin də niyyətləri tarixi faktlarla təqdim edilmişdir.

"Araz sahilində doğan Günəş" tamaşasında əsrin əvvəllərində, o çətin illərdə Türkiyənin Azərbaycana dostluq, qardaşlıq köməyi, Naxçıvanın muxtariyyəti məsələsində heç bir güzəştə getməməsi bu tarixi dostluğun sarsılmazlığını göstərir.

Tamaşanın son səhnəsində ümummilli lider Heydər Əliyevin bu sözləri tamaşaçılara bir daha xatırladılır: ***"Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq".***

Tamaşanın əsas qayəsi Naxçıvanın muxtariyyətinin çətin və mürəkkəb bir şəraitdə qazanıldığını göstərməklə qədim diyarın muxtariyyət uğrunda mübarizəsini bugünkü nəsillərə vətəndaşlıq mövqeyindən aşılamaq, tarixi gerçəkliklərə bu günün gözü ilə baxıb ibrət dərsi almaqdır.

Qeyd edək ki, tamaşada kütləvi səhnələrdə, demək olar ki, teatrın bütün aktyorları rol almışlar. Tamaşanın quruluşçu rejissoru Xalq artisti Kamran Quliyev, quruluşçu rəssamı Naxçıvan Muxtar Respublikasının əməkdar rəssamı Əbülfəz Axundov, musiqi tərtibatçısı bəstəkar, Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənət xadimi Şəmsəddin Qasımovdur.

**Əli RZAYEV**

*Muxtar respublika əhalisinə göstərilən tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi, dispanserizasiya işinin yaxşılaşdırılması məqsədilə həkim briqadaları şəhər, qəsəbə və kəndlərdə, ümumtəhsil məktəblərində kütləvi profilaktik müayinələri davam etdirirlər.*

## Həkim briqadası Çalxanqalada kütləvi profilaktik müayinələr aparmışdır

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin həkim briqadası ənənəni davam etdirərək ötən şənbə Kəngərli rayonunun Çalxanqala kəndində əhalini kütləvi profilaktik müayinələrdən keçirmişdir. Yüksəkixtisaslı həkimlərin təmsil olunduğu briqada ultrasəs və müayinə aparatları ilə təchiz edilmişdir. Kənd həkim ambulatoriyasının həkim və orta tibb işçilərinin də fəal iştirakı ilə həkim briqadası tərəfindən gün ərzində 20 terapevtik, 23 pediatrik, 22 kardioloji, 18 cərrahi müayinə aparılmışdır. Aşkar olunan ilkin xəstələrin müvafiq səhiyyə müəssisələrində dərin tibbi müayinələrə cəlb edilməsi məsləhət görülmüş, onlara ambulator kartlar açılmış, kənd üzrə dispanser qeydiyyatında duran xroniki xəstələrin sayı dəqiqləşdirilmişdir. Əhalinin kütləvi dispanseriziyasının nəticələri, uşaqların icbari, 20 yaşlı əhalinin dispanseriziyasının icra vəziyyəti yoxlanılmış, mövsümi xəstəliklər, uşaqların düzgün qidalanması, ana südünün əhəmiyyəti, qohumluq nikahının və zərərli vərdişlərin hamiləliyə ziyanı barədə səhiyyə maarifi işləri aparılmış, xəstəliklərin profilaktikası ilə bağlı tibbi məsləhətlər verilmişdir.

Eyni zamanda peyvəndlərin icra vəziyyəti, ambulator qəbul, evə çağırış, ailə, dispanser xəstələrin, hamilələrin və peyvəndlərin qeydiyyatı jurnalları yoxlanılmış, çatışmazlıqların aradan qaldırılması üçün lazımi tapşırıqlar verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Əmək müqaviləsi üzrə işçinin əsas vəzifələri hansılardır?*

**Cavab:** Azərbaycan Respublikası Əmək Məcəlləsinin 10-cu maddəsinə əsasən, əmək müqaviləsi üzrə işçinin əsas vəzifələri aşağıdakılardır:

– əmək müqaviləsi ilə müəyyən edilmiş əmək funksiyasını vicdanla yerinə yetirmək;

– əmək intizamına və müəssisədaxili intizam qaydalarına əməl etmək;

– əməyin təhlükəsizliyi normalarına əməl etmək;

– işəgötürənə vurduğu maddi ziyana görə məsuliyyət daşımaq;

– dövlət sirrini, habelə işəgötürənin kommersiya sirrini müəyyən olunmuş qaydada və şərtlərlə gizli saxlamaq;

– iş yoldaşlarının əmək hüquqlarını və qanuni mənafelərini pozmamaq;

– fərdi, kollektiv əmək mübahisələri üzrə məhkəmə qərarlarını yerinə yetirmək;

– əmək qanunvericiliyinin tələblərinə əməl etmək.

***Sual:** Əmək müqaviləsinə xitam verilməsinin əsasları necə müəyyən olunur?*

**Cavab:** Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 68-ci maddəsinə əsasən, əmək müqaviləsinə yalnız Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilmiş əsaslarla və qaydada xitam verilə bilər. Əmək müqaviləsinə xitam verilməsinin əsasları aşağıdakılardır:

– tərəflərdən birinin təşəbbüsü;

– əmək müqaviləsinin müddətinin qurtarması;

– əmək şəraitinin şərtlərinin dəyişdirilməsi;

– müəssisənin mülkiyyətçisinin dəyişməsi ilə əlaqədar;

– tərəflərin iradəsindən asılı olmayan hallar;

– tərəflərin əmək müqaviləsində müəyyən etdiyi hallar.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Təşkilat-nəzarət şöbəsi***


### *İtmişdir*

Naxçıvan şəhəri, "Azərbaycan" küçəsi, ev 6-da yaşamış İmamquliyev İman Əsəd oğlunun adına olan 1802 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Kəngərli rayonunun Şahtaxtı kənd sakini Həsənova Leylan Vahab qızının adına olan 141A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


### *Allah rəhmət eləsin*

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının kollektivi xəstəxananın baş həkimi Rəhim Rəhimova, əzizi
**BABƏK ƏMİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının Nevrologiya şöbəsinin müdiri Yazgül Rzayeva və şöbənin əməkdaşları xəstəxananın baş həkimi Rəhim Rəhimova, əzizi
**BABƏK ƏMİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin dekanı Akif Mərdanlı və fakültənin əməkdaşları dekan müavini Şəmil Mahmudova, dayısı
**SİYAVUŞUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının Stomatologiya şöbəsinin əməkdaşları xəstəxananın baş həkimi Rəhim Rəhimova, əzizi
**BABƏK ƏMİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Şəhər Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Oruc Əliyev və mərkəzin kollektivi Rəhim və İradə Rəhimovlara, əzizləri
**BABƏK ƏMİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 4020. Sifariş № 443